# Tərcümeyi hal

Ramin Sultan oğlu Rzayev 1978-ci il yanvarın 11-də Naxçıvan MR Ordubad r-nu Dəstə kəndində anadan olmuşdur. 1993-1997 ci illərdə Asəf Zeynallı adına ADMT-da təhsil alsıqdan sonra, 1997-2003-cü illərdə Bakı Musiqi Akademiyasının tarixi nəzəriyyə fakultəsinin xalq çalğı alətləri kafedrasında tar üzrə təhsilini bitirmişdir. Muğamatın sirlərinə mahir muğam bilicisi Elxan Müzəffərov və xalq artisti dosent Ağasəlim Abdullayevdən qisməndə olsa yiyələnmişdir. 1994-cü ildə Azərbaycan televiziya və radiosunun "Bənövşə" mahnı və rəqs ansabılında konsert meyster vəzivəsində çalışmışdır.

Türkiyə, Rusiya, İran, Fransa, Almanya , İsrail və s ölkələrdə Azərbaycan muğamatının təmsilçisi olmuşdur. Xalq artisləri mərhum İslam Rzayev, Məmmədbağır Bağırzadə xalq artistləri, professor ArifBabayev, Canəli Əkbərov, Səkinə İsmayılova, Simarə İmanova , əməkdar artistlər Nuriyyə Hüseynova, Teyyub Aslanov, Gülüstan Əliyeva ilə dəfələrlə dövlət tədbirlərində və qastrol səfərlərdə iştirak etmişdir. 2001-ci ildən Xəzər Universitəsində xalq artisti Arif Babayev, əməkdar artist Mirnazim Əsədullayevlə bərabər tələbələrə Azərbaycan muğamlarının sirlərini aşılamışdır. 2010- cu ildə H.Əliyev fondunun dəstəyi ilə keçirilən II beynəlxalq muğam festifalında xanəndə Simarə İmanova ilə 7 lad muğamlardan biri olan Şüştər muğamını səhnədə Birlikdə çalıb-oxumuşlar.

Hal-hazırda xalq artistləri Səkinə İsmayılova və Simarə İmanova ilə sənət yaradıcılığını davam etdirir. Onun tar ifasında bir neçə fundamental muğam dəstgahları Aztv və radiosunun qızıl fondunda qorunub saxlanılıb. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitəsində və Asəf Zeynallı adına musiqi kollecində tar müəllimi kimi fəaliyyət göstərir. Ailəlidir, 2 övladı var. Nəzrin və Pərviz.